Yaqut Qabil qızı Abıyeva
*Bakı Dövlət Universiteti Filologiya fakültəsi*
*Azərbaycan ədəbiyyatı kafedrasının magistrantı*
*yaqutabiyeva1999@gmail.com*

# BƏŞƏRİYYƏTİN FACİƏSİ
## (Xalq yazıçısı İsa Muğannanın "Faciə" povesti əsasında)

***Xülasə:*** *Əllinci illərin sonlarında, altmışıncı illərin əvvəllərində nəsrimizdə yeni bir mərhələ başlandı. İsa Muğannanın "Yanar ürək", "Faciə" əsərləri bu mərhələni bütünlüklə səciyyələndirən əsərlər oldu. "Faciə" povesti Azərbaycan nəsrinin ən ciddi nailiyyətlərindən biri idi. Diqqət yetirsək görərik ki, "Faciə" Azərbaycanın böyük müsibətlərindən neçə il öncə daxili, içəri müsibətlərindən söz açırdı.*

***Açar sözlər:*** *nəsr, təbiət və insan, sevgi və nifrətin qarşıdurması, İsa Muğanna.*

**Yagut Qabil gizi Abiyeva**

## The Tragedy of Humanity
**(based on the story "Tragedy" by the national writer Isa Muganna)**

***Summary:*** *In the late fifties, early sixties, a new stage began in our prose. Isa Mughanna's works "Burning Heart" and "Tragedy" were the works that fully characterized this stage. The story "Tragedy" was one of the most serious achievements of Azerbaijani prose. If we pay attention, we will see that "Tragedy" was talking about the internal troubles of Azerbaijan several years before the great troubles.*

***Key words:*** *Prose, nature and human, conflict of love and hate, Isa Mughanna.*

**Якут Габил кызы Абиева**

## Трагедия человечества
***(по мотивам повеста "Трагедия" народного писателя Исы Муганны)***

***Резюме:*** *В конце пятидесятых, начале шестидесятых годов в нашей прозе начался новый этап. Произведения Исы Муганны "Горящее сердце" и "Трагедия" в полной мере характеризуют этот этап. Повесть "Трагедия" была одной из самых серьезных достижений*





*азербайджанской прозы. Если мы обратим внимание, то увидим, что "Трагедия" говорила о внутренних неурядицах в Азербайджане за несколько лет до великих потрясений.*

***Ключевые слова:*** *проза, природа и человек, конфликт любви и ненависти, Иса Муганна.*

Xalq yazıçısı İsa Muğanna Azərbaycan nəsrinin inkişafında sanballı xidmətləri olan söz sənətkarı, yeni nəsrin banisidir. Bildiyimiz kimi rejimin tələbi ilə ədəbiyyatımızda çox uzun müddət kolxoz mövzusu başlıca mövzulardan idi. Ancaq 60-cılar nəsli bu tabunu qırıb əsərlərinə yeni mövzular gətirməyi bacardılar. Onların içərisində İsa Muğanna xüsusilə seçilirdi. O, kolxoz mövzusunu ciddi kənd problemləri ilə əvəz edə bilən yazıçı oldu. Müəllif "Saz", "Tütək səsi", "Yanar ürək", "Faciə", "Kollu Koxa" və s. kimi əsərlərində yaradılmış kənd bir neçə il öncə kolxoz ədəbiyyatında təsvir olunan kəndin əslində eynisidir, dəyişən bir şey yoxdur, tək fərq ondadır ki, bu kənd reallıqları ilə təsvir olunub.

"Faciə" povestində İ.Muğanna daha ciddi və əhəmiyyətli problemlər qoymuşdur. Əsərdəki hadisələr Mayılovlar ailəsi çərçivəsindən kənara çıxmır. Lakin əsərin bir ailə fonunda həll etdiyi mühüm ictimai-əxlaqi məsələlər məhdud xarakter daşımayıb, doğma yurduna, onun zəngin təbiətinə məhəbbəti olan namuslu adamların hamısının düşüncəsini məşğul edir.

Ədibin həyatı ilə yaxından tanış olsaq görərik ki, belə bir şahanə əsərin yaranmasına səbəb onun "meşə həyatı"nı şəxsən özünün yaşaması olub. Qızı Sevinc Muğannanın bu barədə xatirələrinə nəzər salaq: "Ərköyün "Şolloy" "meşə həyatı"na qədəm qoyur. Meşədən tutduğu quşları qoynuna doldurub, qohum-əqrəbanın tənəsinə, saysız-hesabsız danlağına son dərəcə biganə qalaraq birbaş evin ikinci mərtəbəsinə – taxta otağa qalxırmış. Çox vaxt xəyal içində elə orada yatıb, oyananda özünü çarpayıda görürmüş...

Müharibə başlayandan sonra isə hər şey kəskin surətdə dəyişir: "meşə həyatı"nı "kotan, kətmən, kərənti, yaba həyatı" əvəz edir. "Şolloy" dönüb "İsa", kənd arasında "əfəndi" olur.

"Şolloy"un adı bir də Mustafa baba qırx altıncı ildə Almaniyanın Küsterin şəhərində, komandiri olduğu diviziyaya "əlvida" deyib qayıdanda yada düşür. Meşənin məhv olduğunu görən Mustafa baba bu vəhşiliyə qarşı üsyan edir. Burada Muğannanın "Faciə" povestini xatırlamamaq olmur" [8].

"Faciə" povestində ekoloji aləmin, ətraf mühitin qorunması mənəvi ekologiyanın təmizliyi ilə əlaqələndirilir. Əsəri oxuyarkən həm təbiətin gözəlliklərinin şahidi olur və sanki özümüz o sıx, yaşıl meşəliyin içində meşənin təmiz havası ilə nəfəs alır, ağacların kölgəsində dincəlirik, həm də bu gözəlliyin insan əli ilə necə məhv edildiyini görür və dərin kədərə qapılırıq.

Müəllif müsahibələrinin birində bu haqda fikirlərini belə ifadə etmişdir:

"Təbiətin – suyun, torpağın, havanın korlanması barədə narahatlıqlar, əlbəttə, hamımızı narahat edir. Altmışıncı illərin əvvəllərində mən çox sarsıntılar keçirirdim, "Facіə" povestində o vaxtkı ruhi vəziyyətimi, fikirlərimi ifadə etdim. Açığı, indi başqa fikirdəyəm. Optimist olmuşam. Bütün varlığımla inanıram ki, bu qoca dünya öz işini çox yaxşı bilir. İnsan təbiəti nə qədər korlayırsa, bir o qədər də rövnəqləndirir...

Dövlətin tədbirləri ilə yanaşı xalqın özünün mənəviyyatı, vətənin torpağına, suyuna, havasına vurğun vətənpərvərlərimizin fəaliyyəti bizi əmin edir ki, ana təbiətə soyuq, laqeyd münasibət, nadanlıq, yırtıcılıq məhv olacaq, meşələr qalınlaşacaq, sular durulacaq, Bakının, Sumqayıtın, Gəncənin ab-havası könüllərimizi oxşayacaq" [6].

İnsan təbiətdən törəyir, onun içində yaşayıb zövq alır, amma təbiəti yeyə-yeyə öz daxilini də yeyir. Biz təbiətin insan əli ilə necə məhv olduğunu Zəlimxanın kəndə gəlişi ilə görürük. O, əvvəllər yamyaşıl, sıx ağaclarla örtülü olan meşənin günü-gündən məhv edildiyini görür:

"Yolun sağ-solundan Zəlimxanın üzünə dəhşətli bir xərabəliyin soyuq yeli əsdi. Meşəbəyi oğlu o an hiss etdi ki, bu həndəvərdə ağac zad qalmayıb, torpaq quruyub, duzlaşıb. Kaş heç gəlməyəydi, görməyəydi! Cəmi bir neçə il əvvəl maral, cüyür oylağı sayılan, nəinki təkcə bir rayonun camaatının sevdiyi, hətta Moskvadan, Bakıdan gələn böyük-böyük adamların təriflədiyi, şairlərin vəsf etdiyi bu yerlər nə kökə düşmüşdü?! Hanı qovaqların, xan çinarların pıçıltıları, niyə eşidilmir, Zəlimxan?!... Zəlimxan, doğrudan da dəyişmiş əhvalla yasa batıb ətrafına boylanırdı: kötük, kötük, kötük! Duzlaq, duzlaq, duzlaq!.." [7, s. 323-324].

Zəlimxanın gözləri ilə şahid olub dəhşətə gəldiyi bu mənzərəni edib elə zəngin boyalarla təsvir etmişdir ki, Zəlimxanın çəkdiyi iztirab, dəhşət, təəssüf hissi biz oxucuların iliklərinə qədər işləyir. Məhz buna görə də əminliklə deyə bilərik ki, 59-60-cı illərin İsa Hüseynovu Böyüktalanı – meşə mühitini təsvir edərkən özünün Bakıdakı dəhşətli mürəkkəb mühitinin hadisələrindən də qidalanmış və bədii təxəyyül süzgəcindən keçirərək bütün səmimiliyi ilə oxucularına da o hisləri yaşatmışdır [1].

Müasir dünyamızın ən qlobal, mühüm problemlərindən biri təbiət və insandır. Bu məsələ Muğannanın "Facіə" povestində xüsusi ustalıq və məharətlə şərh olunub.

Müəllif göstərmişdir ki, cəmiyyətlə təbiət, insan gözəlliyi ilə təbiət gözəlliyi həmişə təmasda olmuşdur. Lakin son illər bu ahəng pozulmuşdur, onu bərpa etmək hər bir vətən övladının müqəddəs borcudur.

"Facіə" povestinin geniş əks-səda doğurması təbii amillərlə bağlı idi. Qətiyyətlə demək olar ki, insan və təbiət münasibətləri öz geniş epik təsvirini, onun doğurduğu mənəvi-psixoloji ovqatı həssaslıqla, yüksək vətəndaşlıq mövqeyindən əks etdirən ikinci bir əsər, demək olar ki, yoxdur. Təbiətin ilkinliyini hifz etmək, onu qorumaq, təbii gözəlliklərə milli sərvət mövqeyindən



KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal
№ 3 (16) 2022

yanaşmaq, problemlərini İsa Hüseynov əsərində ictimai həyəcanların ifadə forması kimi götürmüş, onu bədii ümumiləşdirmə vasitəsinə çevirmişdir. Müəllifin insan və təbiət problemini canlandırdığı təsvirin arxasında insan xarakterləri dayanır. Həmin xarakterlərin qarşılaşdırılması, toqquşması zəminində yazıçı qaldırdığı sosial və əxlaqi problemin dolğun, əhatəli və müfəssəl bədii təhlilini aparır. Təsvir etdiyi mürəkkəb ziddiyyətli və dramatik situasiyalar, insan xarakterləri vasitəsi ilə xalqın təbii sərvətlərinin, mənəvi dəyərlərin qorunması məsələsini diqqət mərkəzində saxlayır. Cəmiyyətin həyatındakı dəyişikliklərə, mənəvi proseslərə həssas və fəal münasibət bəsləyən sənətkar böyük ictimai məsələləri, vətəndaşlıq duyğularını uğurla ifadə edir [2].

Yazıçının o zaman əsərdə təsvir etdiyi mənzərə illər keçsə də, köklü dəyişikliyə uğramır. Görkəmli ədəbiyyatşünas Tofiq Hüseynoğlu da bu acınacaqlı vəziyyətin şahidi olmuş və illər keçsə də, heç bir dəyişiklik baş vermədiyini ürək yanğısı ilə ifadə etmişdir: "Ötən yay Qarayazı meşəsinə getmişdim. 1961-ci ildə qəlb ağrısıyla "Teleqram" (İsa Muğanna bu əsərini sonradan "Facіə" adlandırmışdı) povestində qələmə alınmış hadisələrlə təkrar qarşılaşmalı oldum. Burada gördüyüm "kötüklər", çox qiymətli, gözəl-göyçək, qədd-qamətli giləli deyilən, yalnız Qarayazıda bitən ağacların yoxa çıxması, kənd adamlarının bu barədə dərdli-dərdli danışmaları bir daha göstərdi ki, bütün Azərbaycana yollanan "Teleqram" hələ də öz ünvanına yetişməyib" [3].

İnsan-təbiətin bir hissəsi, onun ən ali üzvüdür. O, kainatın ayrılmaz tərkib hissəsi olmaqla təbiət amilləri ilə qarşılıqlı təsirdə artır, yaşayır və inkişaf edir. Biz nə əldə ediriksə, hamısı təbiətdəndir. Buna görə də, təbiətimizi, ətraf mühitimizi qorumaq bizim borcumuzdur. Amma çox təəssüf ki, insanlar təbiəti məhv etmək üçün əllərindən gələni edirlər. Bu həqiqətən də qlobal faciədir.

Əsərdə müəllif bir tərəfdən təbiətin füsunkar gözəlliklərini tərənnüm edirsə, digər tərəfdən də bu göz oxşayan füsunkarlığın necə məhv olduğunu bizlərə Zəlimxanın dilindən nəql edir: "Zəlimxan gözlərini yumdu, qarşısında şümşad qamətli, topa taclı palıdlar cərgələndi. Bir zaman bu palıdların budaqları arasında qeyri-adi iri, alaqanad göyərçinlər gecələyirdilər. Gündüzlər ətrafdakı qara suların, yaşıl talaların üzərində göyün dərinliyinə millənən, öz gözəlliklərindən fərəhlənib coşmuş kimi, qanadlarını bir-birinə vurub şaqqıldadanda deyərdin səmada güllə barandır... Oynaq, havalı quşlar! Öz gözəllikləri, fərəhləri ilə insanı da gözəlləşdirən, fərəhləndirən möcüzə deyildilərmi!"

Zəlimxan səhərə qədər lampa işığında oturar və bu gözəllikləri kağızlara köçürər, Bakıya öz sevimli qəzetinin redaksiyasına yollayardı ki, başqa ürəklər də eyni qürurla döyünüb, onun vəcdini təkrar etsinlər: "Vətənim gözəldir! Vətənimə qurban olum!" – desinlər. Bəs hanı o oynaq, havalı möcüzələr?! Zəlimxan bu mənzərəni gördükcə beynində iki kəlimə dolanırdı: "Kötüklər səltənəti" [7, s. 325].

Bu əsər sosializm realizmi deyilən və fetişləşdirilən bir ədəbi çərçivəyə qarşı üsyan idi. Sosializm realizminin müqəddəsləşdirdiyi "atalar" bu əsərdə öz tragik sonluğuna imza atırlar. Jurnalist Zəlimxan üzünü atasına – qocaman kommunist Sabit Mayılova tutub deyir: "Siz teleqram vurub məni gətiribsiniz ki, qardaşıma kömək eləyim. Mən də öz yazımla bütün Azərbaycana teleqram vurub hamını köməyə çağırmaq istəyirəm. Çünki müsibət böyükdür, baba!... Yazacam ki, bir zaman Azərbaycanın gözəl bir guşəsində gözəl bir meşə vardı. Həmin meşədə Sabit adlı qürurlu, əzəmətli bir meşəbəyi yaşayırdı. Çox şey yazacam, açıqca deyəcəm ki, indi həmin meşədə hara baxırsan kötükdür. Əsil müsibət isə burasındadır ki, adamlar da dönüb kötük olur" [7, s. 281-282].

"Faciə" povestində digər diqqəti çəkən məsələ Zəlimxan – Zümrüd məhəbbət xəttidir. Mürəkkəb bir xarakter olan Zəlimxan həyatın bərkinə-boşuna düşdükcə yetkinləşir. Povestin qəhrəmanı gənc jurnalist qaraxanları, sabitləri, kərimləri xalq mülkiyyətinə və ən nəhayət günahsız bir qız olan Zümrüdə qarşı qeyri-əxlaqi münasibətlərinə görə ittiham edir. O, öz cinayətlərini ailəliklə, qohumbazlıqla malalamağa çalışan, təbiət gözəlliklərini məhv edən, Zümrüd kimi həssas bir qızın könül dünyasını alt-üst qoyan "kötük"lərə qarşı çıxmaqdan çəkinmir, xüsusi mülkiyyətçilik psixologiyasına, meşşançılığa qarşı barışmaz mövqe tutur.

Bakıda yaşayan jurnalist Zəlimxan qardaşı Qaraxandan atasının xəstə olması ilə bağlı teleqram alır. Zəlimxan kəndə gələndə tamam fərqli bir mənzərə ilə qarşılaşır. Atası Sabit Mayılov xəstə deyil, Zəlimxanı əvvəllər sevib-ayrıldığı raykom katibi Əziz Mayılovun gözünün ağı-qarası bircə qızı Zümrüdlə evlənməyə çağırıblar. Belə bir yalan da uydurulur ki, Zəlimxan Zümrüdlə evlənməsə, Əziz Mayılov altı qız atası Qaraxanı həbs etdirəcək. Əslində Zəlimxan heç evə çatmamış qardaşı Qaraxanla yolda bu barədə danışarkən vəziyyətin iç üzünü çox gözəl başa düşürdü. Qaraxan isə davamlı danışırdı:

– Evdə arvad-uşaq külə dönüb, qaqaş! Ağsaqqal vaxtında yazıq kişinin çiyninə dağ boyda dərd qoymuşam. Məndən xəbərsiz minnətə gedib ki, "Əziz, adamı belə xırxalamaq olmaz. Qaraxan altı qız atasıdır, heç olmasa, o qızların xatirinə möhlət ver, özünü düzəltsin". Başlayıb ki, "heç bir həftə də möhlət yoxdu". Və sairə və ilaxirə;

Söhbətin elə bir nöqtəsi yetişdi ki, Zəlimxan daha dözə bilməyib birdən ayaq saxlayıb, məzəmmətli, təəssüflü gözlərlə qardaşının üzünə baxdı.

– Qaraxan, qardaş... birdəfəlik deyə bilməzsənmi ki, məsələ Zümrüdün üstündədi?! [7, s. 277.

Əsərin əvvəlində biz Zəlimxanın Zümrüdlə evlənməyə qarşı olduğunu və bunun da bir səbəbi olduğunu Qaraxanla söhbətindən anlayırıq. Lakin nə olduğunu Zəlimxanın dilindən yox, müəllifin özünün əsərdə verdiyi təfsilatlardan sonra aydın şəkildə başa düşürük: "...Əmma indi bu hissin izahını sonraya saxlayıb, hekayəmizin gedişinin ləngiməsi bahasına olsa da, keçmişə qayıtmalı





və bir sıra başqa təfsilatlar danışmalıyıq. Çünki əslində, hekayə elə bu təfsilatlardan başlayır" [7, s. 294].

Birinci təfsilatda Zəlimxanla şıltaq Zümrüdün münasibəti, aralarında ilk məhəbbətin odlu qığılcımının necə yaranması və nəhayət, həyatın dəbdəbəsinə alışmış Zümrüdlə Zəlimxan arasında hadisələrin necə cərəyan etdiyini və hansı həddə çatdıqlarını görmüş oluruq.

Zəlimxan ikinci kursda oxuyarkən yazdığı hekayələr kitabı dillər əzbəri olmuş və o, bütün Mayılovların, xüsusilə, qardaşı Qaraxanın qürur mənbəyinə çevrilmişdi: "Bu bizim qanımızda var, qanımızda! Yazıq anam elə anadangəlmə şairdi, hər ota, hər çiçəyə bir söz qoşurdu, qafiyəynən danışırdı..." [7, s. 295].

Onun yazdıqları böyükdən kiçiyə hər kəsin dilində idi, lakin bütün Böyüktalada Zəlimxanın yazdığına dodaq büzən, ona rişxənd edən yeganə oxucusu vardı ki, o da Zümrüd idi.

Elə Zəlimxan ikinci kursda oxuyarkən, yəni kitabçasının çıxdığı vaxtlarda Zümrüdə qarşı tamam laqeyd idi, hətta ondan acığı gəlir desək, yeridir. Bəs buna səbəb nə idi? Təbii ki Zümrüdün şıltaqlıqları, dəcəllikləri, davamlı Zəlimxanla olan çəkişməsi...

Zümrüdün davamlı Zəlimxana sataşması, onu qıcıqlandırması heç də əbəs deyildi. Qaraxanın qızları ilə atışıb onlardan küsəndə özünü Zəlimxanın yorğanının altına salıb, böyrünə qısılıb "qaqaş, qaqaş", – deyib yaltaqlanan, gündüzlər isə atılıb-düşməkdən cana-qana gəlməyən Zümrüdün ürəyində gizlin döyüntülər, gözlərində isə güclü həsrət, istək var idi. Zəlimxanın ilk dəfə bu həsrət, istək qarşısında ürəyində titrəyiş duyuldu. Və beləliklə, "birinci təfsilat" gözəl əfsanələrlə dolu cazibəli meşədə "ilk məhəbbətin ilk qığılcımı"nın alışması və sevənlərin arasında "siçan-pişik" oyunun nəticəsindən qorxan Sabit Mayılovun bu işi rəsmiləşdirməyi – nişan taxılmağı ilə qurtarır.

Lakin bu xoşbəxtliyin ömrü uzun olmur. Sonuncu təfsilatda ədib bir ailə, bir meşə timsalında qlobal bir faciəni – təbiətin məhvi ilə birlikdə insan mənəviyyatının da necə məhv olduğunu bizlərə göstərir. Zəlimxan vaxtilə dəlicəsinə sevdiyi, sonradan həyata, ailəyə, insanlığa baxışları müxtəlif olduğu zaman küsüşdüyü Zümrüdlə artıq evlənmək istəmir. Qaraxan onu teleqramla çağıran zaman əmiləri Əzizin Qaraxanı həbs etdirəcəyini deyir, Zəlimxanın isə qardaşının xəcalətindən çıxmaq üçün əlinə fürsət düşür. Çünki illər əvvəl Zəlimxan yanlışlıqla Qaraxanın 3 yaşlı oğlunu öldürür. Bütün bunlara baxmayaraq Zəlimxan evliliyə razılıq vermir, çünki əsil məhəbbətsiz (sevmək yalnız duyğunun coşqunluğu deyil, ideal və əqidə yaxınlığıdır) ailə qurmaq istəmir.

Zəlimxan geri qayıtdıqda bir zamanlar onun oxuması üçün hər şeyi edən doğmalarının indi yadlaşdığının fərqinə varır. Artıq bütün ailə xirtdəyəcən rüşvət içindədir. Hətta bir zamanlar şıltaqlığı, dəcəlliyi ilə Zəlimxanı "dəli" edən Zümrüd də...

Zəlimxan Zümrüdə haram pulla qazanılmış zinət əşyalarını çıxarmasını

məsləhət görür. Həyatın dəbdəbəsinə, komfortuna alışmış Zümrüd deyir: "Tək mənəm?! Hamı geyinmir?! Səriyyə bacının, Məryəmin geyindikləri bəs hardandır?!" [8, s. 329]. Halbuki Zəlimxan Zümrüdün onu anlayacağını fikirləşirdi. Zəlimxan Zümrüdün yanında özünü günahkar hiss edirdi. Çünki onun Zümrüdünü dəyişdirib əvəzində başqa Zümrüd gətirən səbəbləri vaxtında görə bilməmiş, Zümrüdü vaxtında xilas edə bilməmişdi. Uçurumda idi onun Dəli Pərisi. Sevgi ilə tutuşub yanan qızcığazın yerində indi meşşan, şımarıq bir gənc qız var idi. Faciənin tərəflərindən biri də bu idi. Əsərin sonunda Zəlimxanın ona təhsil verən, əlinə qələm verən əziz, yad adamlar haqqında nə yazacağını düşünməsi, Zümrüdü fikirləşməsi İsa Hüseynovun həyatı tədqiq edə bilmə ehtiras və bacarığından xəbər verir.

İsa Muğanna "Teleqram" povestinin qaldırdığı problemlər barədə çox düşünmüş və bunun nəticəsidir ki, sonralar bu əsər dönüb bəşəriyyətin həlli tapılmayan "facіə"sinə çevrilir.

## ƏDƏBİYYAT

1. *Abdullayev C. Bədii nəsrin klassiki // "Yeni Azərbaycan" qəzeti, 1998.*
2. *Hacıyev T. Muğanna deyəndə... // "Yazıçı" qəzeti, 1998, 24 yanvar.*
3. *Hüseynoğlu T. Qorxuram zalımlığa öyrəncəkli olaq // "Rezonans" qəzeti, 1998, 24-26 iyun.*
4. *Hüseynoğlu T. Nəsrdə psixologizm // Ədəbiyyat qəzeti, 1998, 23 yanvar.*
5. *Hüseynov A. Nəsr və zaman. - Bakı: Yazıçı, 1980.*
6. *Hüseynov İ. Povestlər. - Bakı: Gənclik, 1967.*
7. *Hüseynov İ. Seçilmiş əsərləri. 6 clddə, I cild. - Bakı: Avrasiya Press, 2009. - 421 s.*
8. *Muğanna S. Faciə // Ədəbiyyat qəzeti, 1999, 29 oktyabr.*